**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İSA HÜSEYNOVUN NƏSRİ VƏ ƏDƏBİ TƏNQİD

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi : Filologiya

İddiaçı: **Günel Saleh qızı Hümmətova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI- 2022**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Filologiya elmləri doktoru, professor**
Təyyar Salam oğlu Cavadov

**Rəsmi opponentlər::** **Filologiya elmləri doktoru, professor**
Maarifə Hüseyn qızı Hacıyeva

**Filologiya elmləri doktoru, dosent**
Leyla Məcid qızı İmaməliyeva

**Filologiya üzrə fəlsəfə doktoru**
Elnarə Elxan qızı Qaragözova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27- Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru,dosent
**Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru,dosent
**Leyla Kamran qızı Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan İsa Hüseynovun yaradıcılığı müxtəlif kontekstlərdə ədəbi-nəzəri fikrin diqqət mərkəzində olmuşdur. Ayrı-ayrı əsərlərinin problematikası, struktur sistemi, janr səciyyəsi, dinamik mənzərəsi, stixial xarakteri və s. məsələlərlə bağlı aparılan təhlillər müxtəliflikləri, zəngin düşüncə fakturası ilə səciyyələnir. Onların hamısının bir araya gətirilməsi və geniş müstəvidə, təxminən altmış illik zaman hüdudunda mənzərəsinin yaradılması olduqca ciddi aktuallıq kəsb edən problemdir. Ədəbi tənqid İ.Hüseynov yaradıcılığının ayrı-ayrı ədəbi faktlarını; mətn tiplərinin sistemləri, intertekstuallıq sxemləri, yazıçı təfəkkürünün intelleksiya meyarları, arxaik yaddaşın hərəkətliliyi və s. haqqında bir-birinə zidd və üst-üstə düşə biləcək fikir yürütməklə zəngin baza yaratmışdır. Bütün mövcud fikir və mülahizələrin, keçən əsrin əllinci illərindən günümüzə qədər çağdaş ədəbiyyatın görkəmli sənətkar haqqında dediklərinin bir araya gətirilib geniş müstəvidə təhlili ədəbi-nəzəri fikrin qarşısında duran məsələlərdəndir.

İsa Hüseynov ədəbiyyata qədəm basdığı ilk vaxtlardan yazıçı intelleksiyası ilə ədəbi-nəzəri fikrin diqqətini üzərinə cəlb edə bilmişdir. M.Hüseynin, M.Arifin[1], M.Cəfərin[2], S.Rəhimovun[3], İ.Əfəndiyevin[4] və başqalarının onun ilk qələm nümunələri ilə bağlı söylədikləri təsadüfi deyil, yazıçı eridusiyasına marağın nəticəsi olaraq özünü göstərmişdir. Ədəbi

---

[1] Arif, M. M. Böyük məsuliyyət hissi ilə // Ədəbiyyat və incəsənət qəzeti. – 1963, 5 oktyabr. – s. 1,3.

[2] Cəfər, M.C. Dan ulduzu.// Ədəbiyyat və incəsənət. –1954, 12 iyun. –s.3.

[3] Rəhimov, S.H. Açıq danışaq //Ədəbiyyat və incəsənət. –1957, 5 - 17 mart. – s.2-3-4.

[4] Əfəndiyev, İ. Yoldaşlıq söhbəti // Ədəbiyyat və incəsənət.– 1957, 3 avqust.– s.3

tənqidin İ.Hüseynov ətrafında mülahizələrinin dövrləşməsi və həmin dövrdə mülahizələrin spektrlərinin diferensial səciyyəsi, yazıçı düşüncəsinin arxitektonik mənzərəsi, aspektlərinin aydınlaşması bir problem olaraq həmişə aktuallıq kəsb etmişdir. Burada əlbəttə İ.Hüseynovun özünün də ədəbi tənqidin dediklərinə münasibəti (yazıçı mövqeyi) və yazıçının ayrı-ayrı əsərlərinə təkrarən yanaşması, münasibəti məsələlərə, ədəbi prosesin gedişinə əlavə çalar qatmışdır.

50-60-cı illər ədəbi tənqidi, 70-80-ci illər ədəbi tənqidi, müstəqillik dövrü ədəbi tənqidi və İ.Hüseynov məsələsi bir düşüncə müstəvisindən çox uzaqda olan ədəbi fakt kimi xarakterizə olunur. Ədəbi tənqidin paradiqmatik mənzərəsi üfiqi və şaquli yanaşmalarda sosioloji, ictima-siyasi aspektlərdən struktual səviyyəyə qədər rəngarəngliklərlə müəyyənləşir. Üslub yaradıcısı və fərqli düşüncə modelləri ilə ədəbi-mədəni mühiti hərəkətə gətirən İ.Hüseynov etnokulturoloji sistemin üzərində bəşəri dəyər və bəşəri problemlərə köklənməklə yazıçı intelleksiyasını ortaya qoymuşdur.

İsa Hüseynov və İsa Muğanna imzalarının ehtiva etdiyi məzmun, alt və üst qatda işarələdiyi funksionallıq mətn tiplərinin və yazıçı intelleksiyasının təzahürü kimi mükəmməl faktura ilə müəyyənləşir. “Anadil ötən yerdə”, “Koroğlunun çən qalası”, “Cəbhədən məktub”, “Bizim qızlar”, “Saz”, “Tütək səsi”, “Kollu Koxa”, “Doğma və yad adamlar”, “Yanar ürək”, “Məhşər”, “İdeal”, “Əbədiyyət”, “GurÜn”, “Qəbristanlıq”, “İsahəq, Musahəq” və s. əsərlərinin ehtiva etdiyi sistem, daxili harmoniya, etnomədəni yaddaş alt qatda həm də güclü bağlantılarla faktlaşır. Bütün bunların ədəbi tənqidin arsenalında yaratdığı təsəvvür, təsdiq və inkar məqamları, düşüncə və təsəvvür əkslikləri İsa Hüseynov nəsrinin ədəbi tənqid müstəvisində sistemli təhlilə gətirilməsini aktuallaşdırır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi İ.Hüseynovun yaradıcılığının ədəbi tənqid kontekstində qənaətlərinin mahiyyət və məramını, nəzəri aspektlərini aydınlaşdırmaqdır. Çünki ədibin yaradıcılığı müxtəlif yönlü

yanaşmaların, təhlillərin problem-predmeti olaraq həmişə təhlil müstəvisinə gətirilmişdir. Bütün bunlar müasir ədəbiyyatşünaslığın metod və prinsipləri kontekstində təhlil probleminə çevrilir. Ədəbi tənqidin İsa Hüseynovun yazıçı kimi dərki və onun təqdimi məsələləri bir məqsəd olaraq əsas götürülmüşdür. Məqsədin reallaşması üçün isə aşağıdakı vəzifələr qarşıya qoyulur:

-ədəbi tənqidin müxtəlif mərhələlərdə İsa Hüseynov yaradıcılığına münasibətinin ümumi aspektlərini müəyyənləşdirmək;

-İ.Hüseynov yaradıcılığına ədəbi tənqidin həssas münasibətinin məram və məqsədini aydınlaşdırmaq;

-50-60-cı illər ədəbi mühitində siyasi-ideoloji sistem və nəcib qəhrəman təsəvvürünün prinsiplərini və İ.Hüseynova mühitin baxış meyarlarının səbəb və məzmununu açıqlamaq;

-"atamı yaxşı tanıyıram" modelinin yazıçının təfəkkür intelleksiyasında meyarlaşdırdığı təsəvvürü aşkarlamaq;

-70-80-ci illər ədəbi tənqidinin İ.Hüseynovun yaradıcılığına münasibətdə fərqli keyfiyyət prinsiplərini müəyyənləşdirmək;

-"Anadil ötən yerdə"dən "Yanar ürək"ə olan inkişafın dinamik mənzərəsinin ümumi sistemini aydınlaşdırmaq;

-"Məhşər" ətrafında ədəbi tənqidin mövqe və münasibət müxtəlifliklərinin mahiyyətini açıqlamaq;

-müstəqillik dövrü Azərbaycan ədəbi tənqidi və İsa Muğanna yaradıcılığına münasibətdə baş verən dəyişmələrin ümumi xətlərini müəyyənləşdirmək;

-"İdeal", "GurÜn", "Qəbristanlıq", "Əbədiyyət", "İsahəq, Musahəq", "İlan dərəsi", "Qırx kisə qızıl" əsərlərinin sərgilədiyi məzmun və ədəbi tənqidin mövqe (yazıçını dərkinin) fərqliliklərinin səbəb və mahiyyətini aydınlaşdırmaq;

-İsa Hüseynovdan İsa Muğannaya gələn yaddaş və düşüncə prinsiplərinin alt və üst qatlarında özünü göstərən yazıçı təfəkkürü intelleksiyasının yaxınlıq və fərqlilik meyarlarını tipoloji kontekstdə aşkarlamaq və s.

**Tədqiqatın metodları**. Dissertasiya müasir ədəbi-nəzəri fikrin müəyyənləşdirdiyi meyar və prinsiplər əsasında yazılmışdır. Problemin aydınlaşmasında tarixi-müqayisəli, struktural metodlardan yararlanılmışdır. Tipoloji yanaşmaların mövcud sistemləri əsasında İsa Hüseynov yaradıcılığına ədəbi tənqidin mövqe və baxış konsepsiyası aşkarlanmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyanın qarşıya qoyduğu əsas müddəaları aşağıdakı kimi müəyyənləşmişdir:

1.50-ci illərindən günümüzə qədər ədəbi tənqidin İsa Hüseynovun yaradıcılığı ilə bağlı irəli sürdüyü fikir və mülahizələr,

2. ədəbi tənqidin yanaşma fərqlilikləri, təhlil prinsiplərinin müəyyənləşməsi,

3. 50-60-cı illər, 70-80-ci illər, eləcə də müstəqillik dövrü qənaət və mülahizələrin ümumi sistem özünəməxsusluqlarını müəyyənləşdirmək.

**Tədqiqatın elmi yeniliyi.** İsa Hüseynov bədii nəsri və ədəbi tənqid probleminin geniş müstəvidə təhlili bir sıra ciddi elmi yeniliklərlə səciyyələnir.

-İsa Hüseynovun yaradıcılıq konsepsiyası, yazıçı intelleksiyasının təfəkkür meyarları aydınlaşdırılmışdır;

-50-60-cı illər ədəbi tənqidinin ümumi baxış sistemi İ.Hüseynovun əsərlərinə münasibət müstəvisində müəyyənləşdirilmişdir;

-siyasi-ideoloji sistemin müəyyənləşdirdiyi *"nəcib qəhrəman*", *"sovet adamı"* modeli ilə İ.Hüseynovun yazıçı təsəvvürü arasındakı fərqliliklər aşkarlanmışdır;

-60-cı illər nəsrinin paradiqmatik mənzərəsinin müəyyənliyində İ.Hüseynovun funksioner rolu açıqlanmışdır;

-*"atamı yaxşı tanıyıram"* təsəvvürünün yazıçının yaradıcılıq prinsipi olaraq ifadə etdiyi məzmun konkret nümunələr əsasında müəyyənləşdirilmişdir;

-ədəbi tənqidin 50-60-cı illər çərçivəsində İ.Hüseynov yaradıcılığına fərqli münasibətlərinin aspektləri aydınlaşdırılmışdır;

-50-60-cı illər ədəbi-tənqidi ilə 70-80-ci illər ədəbi tənqidinin yazıçıya yanaşma üsullarının fərqliliklərinin səbəb və mahiyyəti aşkarlanmışdır;

-"Məhşər" romanının və romana ədəbi tənqidinin münasibətinin ümumi aspektləri konkret nümunələr əsasında faktlaşdırılmışdır;

-"Yanar ürək" və "İdeal" əsərlərinin genetik sistemi, arxitektonik mənzərəsi, yaddaş kodları ədəbi tənqidin qənaətləri əsasında tipoloji təhlilə gətirilmişdir;

-İsa Hüseynov və İsa Muğanna imzalarının formalaşdırdığı təsəvvür və onun fərqlilik // özünəməxsusluq meyarları açıqlanmışdır;

-"GurÜn", "Qəbristanlıq", "Əbədiyyət", "İsahəq, Musahəq", "Qırx kisə qızıl" və s. əsərlərin məzmun və informasiya qatları, ehtiva etdiyi yaddaş sxemləri aydınlaşdırılmışdır;

-Ədəbi tənqidin İsa Hüseynov (İsa Muğanna) yaradıcılığına yanaşmasının ümimi sistemi müəyyənləşdirilmişdir və s.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya bədii nəsr və ədəbi tənqid kontekstində kifayət qədər fundamental təsəvvür formalaşdırır. Çünki İsa Hüseynov çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olaraq ədəbi prosesin ümumi axarına istiqamət verə biləcək yaradıcı simadır. Sərt yazıçı mövqeyi, həyat hadisələrinə siyasi ideolojilərin müəyyənləşdirdiyi prinsiplərdən kənar mövqe sərgiləməsi ədəbi tənqid tərəfindən bütün mərhələlərdə birmənalı qarşılanmamışdır. Bütün bunların geniş müstəvidə təhlilə gətirilməsi bədii mühit və ədəbi tənqid kontekstində digər tədqiqatlar üçün nəzəri baza funksiyasında mühüm əhəmiyyət kəsb edir. Tədqiqatdan sahə mütəxəssisləri, doktorantlar, filologiya fakültəsinin tələbələri faydalana bilərlər. Universitetlərdə bu tədqiqatdan xüsusi kurs kimi də istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu ADPU-nun elmi şurasının 12 iyun 2013-cü il tarixli (19 saylı protokolu), AR-nın elmi tədqiqatlarının təşkili və əlaqələndirilməsi şurasının ədəbiyyatşünaslıq üzrə problem şurasının 9 aprel 2013-cü il tarixli (19 saylı protokolu) iclasında təsdiq edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.**Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ədəbiyyat kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas nəzəri müddəa və tezisləri AAK-ın tövsiyə etdiyi jurnal və məcmuələrdə, xarici ölkə mətbu orqanlarında, elmi konfranslardakı məruzələrdə əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş (9699), I fəsil (97340), II fəsil (96650), III fəsil (100263) , nəticədən (10667) ibarət olmaqla, ümumi həcmi (335671) 159 səhifədir..

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş"** bölümündə tədqiqatın aktuallığı, elmi yeniliyi, obyekt və predmeti, işlənmə dərəcəsi, məqsəd və vəzifələri, metodoloji əsası, nəzəri-təcrübi əhəmiyyəti haqqında qısa, yığcam şəkildə məlumat verilmişdir.

Dissertasiyanın I fəsli **İ.Hüseynovun nəsr yaradıcılığının ilk mərhələsi (1950-ci iilər) və ədəbi tənqid** adlanır. Birinci fəslin "***"Bizim qızlar" povesti sosrealizm çevrəsində"*** adlı birinci paraqrafında İ.Hüseynovun bədii nəsrə gəlişinin Azərbaycan ədəbiyyatının *"yol ayrıcı"*nda qalması dövrünə düşməsi, 50-ci illərin əvvəlləri ədəbiyyatımızın "*yeni keyfiyyət mərhələsi"*nin ədəbiyyata daxil olması təhlil obyektinə çevrilmişdir. Eyni zamanda *"konfliktsizlik*" nəzəriyyəsinin əsas prinsipi olan "müsbət qəhrəman" və "*müsbət faktlar" metodologiyası ilə İ.Hüseynovun düşüncəsi, həyat hadisələrinə yanaşması arasında əsaslı fərqliliklər*[5] və *"UİK(b)P MK-nın ədəbiyyat və incəsənət haqqında*

---

[5] Arif, M.M. Yazıçının siyasi mövqeyi. İsa Muğanna. Seçilmiş əsərləri. [6 cilddə] / M.Arif, – Bakı: Avrasiya Press, – c. 6. – 2009, –11-16 s

*1946-1948-ci il qərarlarından sonra ("Zvezda" və "Leninqrad" jurnalları haqqında - 14 avqust 1946-cı il; "Dram teatrlarının repertuarı və onu yaxşılaşdırmaq tədbirləri haqqında" – 26 avqust 1946-cı il və s.)"*[6] ədəbiyyata ideoloji-sosioloji yanaşmanın bir qədər də sərtləşməsi prinsipi əks edilmişdir. Həmçinin dissertasiyada həyat həqiqətlərinə yeni prinsiplər kontekstində yanaşan "Zvezda" və "Leninqrad" jurnalları bütün fəaliyyətləri ilə vətənə xəyanət səviyyəsində təhlilə gətirilirdi. *"Xalq qarşısında, dövlət qarşısında, partiya qarşısında öz məsuliyyətini, öz dərk etmək qabliyyətini itir"*məkdən[7] ibarətdir. Burada vurğulanan digər istiqamət *"qeyri sovet yazıçılarının sovet ədəbiyyatına zərərli təsiri ilə"*[8] mübarizə məsələsidir. Baş verənlər, siyasi mühitin ortaya qoyduğu ideoloji düşüncə, metodoloji sistem baxımından İ.Hüseynovun yaradıcılığını bir neçə istiqamətdə təhlil etmək gərəyi yaranır.

a) 50-ci illər siyasi-ideoloji sistemin müəyyənləşdirdiyi prinsiplər müstəvisində;

b) "*yeni nəsr*" düşüncəsi ilə ədəbiyyata gələnlərin yanaşmalarında;

c) 60-80-ci illər ədəbi tənqidinin fərqli təmayülləri kontekstində;

ç) 80-ci illər və ondan sonrakı dövr ədibin özünün əsərlərinə fərqli yanaşmalarında;

d) müstəqillik dövrü ədəbi tənqidin baxış bucağında və s.

Dissertasiyada bütün bunlar ayrı-ayrı zaman kəsimlərində ədəbi-mədəni prosesin fakturasını, tarixi-mədəni prosesin postulatlarını, onun arxitektonik sistemini aydınlaşdırmaq üçün

---

[6]Hümmətova, G.S. 1950-ci illərdə ədəbi proses və tənqid // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları /– Bakı,–aprel, – 2015.– I cild. –s.425-427.

[7] "Zvezda" və "Leninqrad" jurnalları haqqında ÜİK(b)PMK-nın 1946-cı il 14 avqust tarixli qərarı / Jdavov, A.A. – Bakı: Azərnəşr, – 1953. – 32 s

[8] Yenə orada s. 7

əsaslı material verir. 50-ci illər nəsrinin "*milli estetik təfəkkür*"[9] baxımından nələrlə şərtləndiyini təhlilə gətirən T.Salamoğlu onun *"estetik prinsipləri"nin Moskvanın mənəvi-siyasi partiya –MK-nın*[10] mətbəxtində hazırlandığını vurğulamaqla bütünlükdə mahiyyəti aydınlaşdırır. Fərdi yazıçı üslubunun, istedadının buradan nələrlə xilas ola biləcəyi isə başqa məsələ idi. Olanların ilk öncə rus ədəbi mühitində *"dequstasiya"* edildikdən sonra digər yerlərə göndərdiyini, buna görə də *"milli təfəkkürün"* məhsulu olmadığını vurğulayan tənqidçi milli təfəkkürün hərəkətlilik imkanlarını yazıçı yanaşmalarında və mövqeyində, onun üslub özünəməxsusluğunda axtarmaq məsələsinə toxunur. Çünki mövcud ideologiya *"milli təfəkkürün*" güclənməsinə əks mövqedə dayanmaqla funksional münasibətin sxemini müəyyənləşdirirdi. Tənqidçi bütün bunlarla yanaşı, 50-ci illər nəsrini Azərbaycan nəsri üçün əhəmiyyətli dövr kimi qiymətləndirir, *"yeni nəslin", "yeni nəsrin*"[11] yaranması və *""yeni nəsr"in formalaşması"*[12] üçün bir yolayrıcı yolu- *"keçid"* dövrü kimi təhlil edir. Doğrudan da, 50- ci illər nəsri sovetlər dönəminin 30-cu illərin axarındakı təsəvvürlə qəlibləşməklə bir növ *"yolayrıçı"*nda görünür və həm də durğunluq təsəvvürü formalaşdırır. Yeni başlanğıcın hərəkətliliyi üçün süstlük zamanını yaşayır.

Bütün deyilənlər kontekstində İ.Hüseynovun birmənalı qarşılanmayan "Bizim qızlar" povestinə tənqidin münasibətini iki aspektdə ümumiləşdirmək gərəyi yaranır:

a) tənqidi razı salan cəhətləri;

b) tənqidi razı salmayan cəhətləri.

---

[9]Salamoğlu,T.C. Azərbaycan ədəbiyyatının müasir problemləri / T. Salamoğlu. – Bakı: MMC, – 2014, – s. 10

[10]Yenə orada s.7

[11]Hümmətova, G.S. XX əsrin birinci yarsında UİK(B)P MK-nın ədəbiyyat və incəsənət haqqında qərarının "Yeni nəsr"də rolu// –Bakı,: Filologiya məsələləri– 2018 . №17, – s.323-328.

[12]Hümmətova, G.S. İsa Hüseynov nəsri və ədəbi tənqid // –Bakı: Filologiya məsələləri –2017. №17, – s.392-396

Əlbəttə burada ortaqlıq bağlantılarını, yəni ümumi prizmada olanları tipoloji müstəvidə, daha doğrusu, tənqidin özünün tipologiyası baxımından da aydınlaşdırmaq gərəyi yaranır.

M.C.Cəfərov "Bizim qızlar" povestinə tənqidi yanaşmamışdan öncə əsərin müsbət cəhətlərini qeyd edərək bildirmişdir ki, *"İsa Hüseynovun ilk qələm təcrübələri göstərmişdir ki, o, həqiqətən, yazıçılıq istedadına malikdir"*[13].

Son olaraq ədəbi arenada İ.Hüseynov haqqında bütöv təsəvvür formalaşdırır və "Bizim qızlar" povesti ilə bağlı ədəbi tənqidin ayrı-ayrı nümayəndələrinin fərqli mövqe nümayiş etdirməsi də bunun göstəricisidir. Ona görə də yazıçı ilə bağlı münasibətlərin ümumi məzmununu bir neçə xətdə izləmək gərəyi yaranır:

a) siyasi-ideoloji sistemin müəyyənləşdirdiyi yazıçı konsepsiyasından qaynaqlananlar;

b) yeni tendensiyalara meyilli olan yaradıcı qrupların münasibəti;

c) yazıçı psixologizmini dərk edə bilməyib qeyri-təbii yanaşmalar və s.

Bu üç prizmadan yanaşmalarla İ.Hüseynovun bütün əsərləri təhlil və müzakirə obyektinə çevrilmişdir. "Bizim qızlar" povesti ətrafında aparılan müzakirələrdə də bu bir xətt olaraq vurğulanır.

***" İ.Hüseynov nəsrinin birnci mərhələsində sosrealizmə müqavimət duyğusu. Tənqidin sənətkarın yaradıcılığına sərt reaksiyaları"*** adlı ikinci paraqrafda XX əsr Azərbaycan bədii nəsrinin böyük simalarından hesab olunan İsa Hüseynovun yaradıcılığının müxtəlif kontekstlərdə ədəbi tənqidin probleminə çevrilməsi, onun ədəbi

[13] Cəfər, M.C. Həyatın romantikası /M.Cəfər. – Bakı: Azərnəşr, – 1968, – 446 s.

.

irsi, bütünlükdə keçib gəldiyi yaradıcılıq yolu tədqiq edilmişdir. İkinci paraqrafda yazıçı yaradıcılığının daha çox üç dövrə bölünməsi:

"a) *yaradıcılığının ilk mərhələsi; "Bizim qızlar", "Dan* ulduzu*" əsərlərinin yazıldığı dövr;*

*b) İkinci mərhələ "Saz", "Tütək səsi", "Kollu Koxa", "Doğma və yad adamlar", "Quru budaq", "Yanar ürək" və s. əsərlərinin yazıldığı dövr;*

*c) "İdeal"dan başlayan mərhələ"*[14]məsələsi aşkarlanmışdır. Həmçinin birinci mərhələyə daxil olan "Bizim qızlar"la "Dan ulduzu"nun mövzu və problematika, qəhrəman tipi baxımından tipoloji yaxınlığı və fərqləri, "Dan ulduzu" və "Yanar ürək"də İ.Hüseynovun ideolojidən qopmaq cəhdləri öz əksini tapmışdır.Eyni zamanda "Yanar ürək" romanından sonra İ.Hüseynovun yaradıclığı ilə bağlı ədəbi tənqidin fikirləri, *"M.A.Dadaşzadənin, M.C.Cəfərov, Y.Seyidov, Q.Xəlilov, M.Əlioğlu"*[15] xüsusən M.Arifin "Yazıçının siyasi mövqeyi", C.Cəfərovun "Yazıçı və həyat" (1958), M.Hüseynin "Yekunlar və vəzifələr" (1958) məqalələrində və əsərə kəskin tənqidi münasibət:,yazıçının realizminin zəifləməsi, *"kolxoz həyatını əyri güzgüdə göstərməsi"* (M.Arif), həyat həqiqətinin təhrifi, ictimai mövqe və məqsəd aydınlığının olmaması, "Səməd Əmirlinin "*döyüşkən, prinsipial bir kommunist obrazı kimi yaradılmaması, yaxud sənətkarın "müsbət sovet adamlarının əzəmətli surətini yaratmaqda aciz qalması"* (M.Hüseyn) kimi tənqidi fikirlərin əksi müzakirə obyektinə çevrilmişdir. M.Cəfərə görə *"O (İ.Hüseynov), sözün əsl mənasında obrazlı təfəkkürə malikdir. Onda hər bir hadisənin mahiyyətinə dərindən nüfuz edə bilən çox incə yazıçılıq müşahidəsi görünməkdədir*"[16]. "Bizim qızlar" və "Dan ulduzu" povestlərindəki oxşar həyat hadisələrinin cərəyan etməsinə baxmayaraq, məhəbbət

---

[14]Hümmətova, G.S. İsa Hüseynovun "Teleqram" povesti yeni nəsrin ilk nümunəsi kimi // Казан-Нур-Султан-Измир, Материалы IV международного научно-методического онлайн-семинара /–20 fevral, –2020. –s.521-525.
[15]Hümmətova,G.S. "Doğma və yad adamlar"60-cı illər ədəbi tənqiddə // Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları /_– Bakı, –19-20 dekabr, –2013, –II cild. –s.103-105..
[16]Cəfər, M.C.Yazıçı və həyat.//Azərbaycan gəncləri.–1957, 27 oktyabr. –s.2

macəralarının uğurlu təsvirinin "Bizim qızlar" povestindəki təqdimi *"çox inanadırıcı, həqiqi və sadədir"*. Tənqidçiyə görə, yazıçı *"həyatı, insanları tanımaq nöqteyi-nəzərindən irəli getməkdənsə geriyə getmişdir"*[17]. Ümumilikdə götürdükdə bu povestlərdə bir növ yazıçı ideolojilikdən qoparaq həyat həqiqətlərini olduğu səpkidə əks etdirərək *"yeni nəslin"* - "*insan"* konsepsiyasını müəyyənləşdirir."Dan ulduzu" və "Yanar ürək" povestlərindən bəhs edən Svetlana Əliyeva isə həmin əsərləri "Dan ulduzu" və "Yanar ürək", yeni və köhnə nəsr arasında *"aşırımdır" deyir*"[18] qənaətinə gəlir.

Hekayə və povestləri ilə həmişə ədəbi mühiti intensiv surətdə məşğul edən yazıçı "Yanar ürək"lə yeni başlanğıcın əsasını qoydu. Bəkir Nəbiyev yazır ki, *"onun ilk əsərləri öz ədəbi sələfləri ilə bu qələm yoldaşlarının yaradıcılığı arasında bir növ qısa müddətli xüsusi keçid mərhələsi"*dir[19]. "Yanar ürək" İ.Hüseynov yaradıcılığının boyartımını, yazıçı təfəkkürünün imkanlılıq dərəcəsini, ədəbi prosesdə yeniləşmənin istiqamətini və səviyyəsini müəyyənləşdirmək üçün meyar, ölçüdür. Onun *"roman janrına yeni münasibət* " gətirməsi fikrini isə İ.Şıxlı qənaətləri timsalında təsdiqləsək belə, nəticəyə gəlirik ki, *"bu roman Dostayeviski üsulu, təhkiyəsi və romana, həyata Dostayevski baxışı ilə İsa Hüseynov püxtələşməsinin orjinallığı idi"*[20]. B.Nəbiyevə görə, "Yanar ürək" nəsrimizin vaxtı ilə yeni yayılmış "*üzdən şumlama" deyilən bədii təsvir üsulundan uzaqlaşmasının ilk yaddaqalan cəhətlərindən biridir"*[21]. Həmçinin yazıçının Səməd Əmirliyə əsas qəhrəman rolu verməsi, lakin onu bilərəkdən müsbət qəhrəman missiyası ilə yükləməməsi kimi fikirlərin ədəbi tənqiddən gətirilən statlarla təhlili, Səməd obrazının canlı və

---

[17]Cəfər, M.C. Dan ulduzu.// Ədəbiyyat və incəsənət. –1954, 12 iyun. –s.3

[18]Əliyeva, S.Sənətkarlıq dərsləri //–Bakı: Azərbaycan,–1979. № 12,– s.129

[19]Nəbiyev, B.Ə. Bitkin xarakterlər ustası// Kommunist, –1988, 25 iyun. –s.3

[20]Şıxlı, İ.Q.Sənətkar möcüzəsi // Ədəbiyyat və incəsənət. – 1988, 17 iyun. – s.7.

[21] Nəbiyev, B.Ə. Bitkin xarakterlər ustası // Kommunist, –1988, 25 iyun. –s.3

mürəkkəb, eyni zamanda tragik bir obraz kimi şərh edilməsi, Səməd Əmirli obrazının ideoloji təbliğat vasitəsi kimi yox, gerçəkliyin sənətkarcasına ümumiləşdirilməsinin nəticəsi kimi yaranması fikri təhlil obyektinə gətirilmişdir.

Tədqiqatın II fəsli **İ.Hüseynov yaradıclığında yeni keyfiyyət mərhələsi (1950-ci illərin sonu, 60-ci illər) və ədəbi tənqid** adlanır. II fəslin "***"Doğma və yad adamlar"da ehkamçı, doqmatik sənətə parodik-tənqidi münasibət"*** adlı birinci paraqrafında "Yanar ürək"də sosializm gerçəkliyinə ünvanlanmış tənqidin "Doğma və yad adamlar"da bilavasitə sosrealist sənətin özünə qarşı yönəlməsi, sosrealizmin ehkamçı, doqmatik sənət kimi tənqid hədəfinə çevrilməsi və "*Ədəbiyyatın özünü də yazıçı surəti vasitəsi ilə romana daxil etmək"* (T.Əlişanoğlu) və ona münasibət bildirmək tendensiyası, əsərdəki Qara Canbalayev, Cəlal Cavadlı, gənc tənqidçi Bəkir obrazlarına satirik, tənqidi yanaşmanın parodik-kinayəli səciyyəsi təhlilin əsas prinsipi olmuşdur. "Yanar ürək"də ehkamçı sənətə etiraz əlaməti və həqiqətin ifadəsi olaraq yaranan mənfi plandakı raykom katibi – Sultan Əmirli obrazından *"sovet yazıçısını da mənfi planda təsvir etmək"* (A.Hüseynov) tendensiyasına qədərki konseptuallığı təhlil edilmişdir. Zaman və mühit, insan və təbiət münasibətləri çərçivəsində İ.Hüseynovun bədii təfəkkürü müxtəlif zaman kəsiklərində həmişə fərqliliklə, bir növ yeniləşmə, axtarış meyillərinin ümumi ahəngi ilə diqqəti cəlb edir. Məsələn, "Bizim qızlar", "Yanar ürək", "Doğma və yad adamlar" ardıcıllıq dinamikasında mövcud ideoloji struktura yox, yazıçı idealına, həyat həqiqətinin faktaloji mənzərəsinə əsaslanır. "*Doğma və yad adamlar" əsərində, hətta adından göründüyü kimi, ədib cəmiyyət haqqında bu ritorik məqamın özünü predmetə çevirir, həqiqətə varmaq üçün Ədəbiyyatın özünü də yazıçı surəti vasitəsi ilə romana daxil edir"*[22].

---

[22] Əlişanoğlu, T.M. Azərbaycan "yeni nəsr"i / T.Əlişanoğlu. – Bakı: Elm, – 1999. – 128 s.

İ.Hüseynovun düşüncəsində olanlarla mühitin, ədəbi tənqidin arasındakı anlaşılmazlıq məhz bunlarla bağlı idi. Ona görə də ədibin yaradıcılığı ilə bağlı yazılmış məqalələri bir neçə istiqamətdə qruplaşdırmaq olar:

a) ədəbi tənqidin İ.Hüseynov yaradıcılığına yeni keyfiyyət mərhələsi baxımından yanaşmaları;

b) siyasi-ideoloji prinsiplərin pozulması, sovet adamı ilə bağlı müəyyənləşmiş təsəvvürün dağıdılması kontekstində olan təhlillər;

c) fərdi yaradıcılıq müstəvisində, özünəməxsusluq aspektində olan münasibət və s.

Tənqidçi M.Arif "Doğma və yad adamlar"da müəllifin, xüsusi bir məhəbbətlə qələmə aldığı-ləyaqətləri, insani keyfiyyətləri ilə seçilən "doğma adamlar"la nifrət, qəzəbli kinayə ilə təsvir edilən "yad adamlar"ın bir-biri ilə barışmayan insanların mübarizəsini, "yad adamların" fəaliyyətinə geniş yer verildiyi halda, müsbət surətlərin zəif və solğun şəkildə təsvirini, Canbalayevlərin keçmişləri ilə əlaqədar olan ən xırda nöqsanlarının qabarıq şəkildə, sanki oxucuda bu obrazlara hiddət, qəzəb hisslərinin yaranmasına çalışdığını qeyd etmişdir.

"Keçən ilin bədii nəsrinə və poeziyasına həsr olunmuş yaradıcılıq müzakirəsi"ndə Y.Seyidov "Doğma və yad adamlar" romanına xüsusi diqqət yetirir; bir ailənin məişət probleminin, meşşanlığın müasir təzahürlərini, cəmiyyətimizin əxlaq normalarına zidd hərəkət edən adamları damğalamaq istəyinin, müəllifin qarşısına qoyduğu nəcib və xeyirxah bir məqsəd olduğunu daha çox diqqət önünə gətirməklə yanaşı, *"yazıçı bədii vasitələrlə bunu ifadə etməyə müvəffəq olmamışdır"*[23] qənaətini

[23] Keçən ilin bədii nəsrinə və poeziyasına həsr olunmuş yaradıcılıq müzakirəsi // Seyidov Y. Dadaşzadə M.A / Ədəbiyyat və incəsənət. –1961, 22 aprel. –s.3

də aydınlıqla göstərir. Romanın dili, müəllif üslubunun bir qədər qüsurlu olması və s. kimi məsələlər də "Doğma və yad adamlar"la bağlı təhlillərdə özünə yer alır. Lakin digər bir qrup, məsələn, M.Arif, M.Cəfər, S.Rəhimov, İ.Əfəndiyev, İ.Şıxlı, Q.Xəlilov, B.Nəbiyev, P.Xəlilov, C.Abdullayev və başqalarının təhlillərində İ.Hüseynovun yazıçı üslubu xüsusi keyfiyyət və orijinallıq məsələsi kimi vurğulanır. M.Vəliyev isə əsərin müəllifin dili ilə hadisələrin söhbət şəklində nağıl edilməsini romanın üslubunun, yazı tərzinin qüsurları ilə əlaqələndirir.

Bütün bunlar "Doğma və yad adamlar" kontekstində İ.Hüseynov yaradıcılığına keçən əsrin 50-ci illərinin sonu və 60-cı illərin ədəbi tənqidi səviyyəsində münasibəti və ədəbi-mədəni mühitdə keyfiyyət dəyişməsinin nələrdən keçdiyini aydınlaşdırmağa imkan yaradır.

***"İ.Hüseynovun 60-ci illər nəsrinin tipologiyası və ədəbi tənqid"*** adlı ikinci paraqrafında İsa Hüseynovun bu illərdə qələmə aldığı "Teleqram", "Saz", "Tütək səsi", "Kollu koxa" və s. povestlərinin "yeni nəsr"in formalaşmış nümunələrinin ədəbi tənqid tərəfindən müzakirə obyektinə çevrildiyi nümunələr əsasında təhlil edlmişdir."Teleqram" povestinin *"yeni nəsrin ilk önəmli nümunəsi"* (T.Əlişanoğlu) kimi meydana çıxması, "sovet həyatı", *"sosializm gerçəkliklərinin isə yalnız fakturada, material kimi çıxış etməsi"(T.*Əlişanoğlu) kimi fikirlər tənqidi materiallarla təhlil obyektinə çıxarılmışdır. Ona görə də 60-cı illər nəsrinin tipologiyası müstəvisində "Saz", "Tütək səsi", "Kollu Koxa", "Teleqram" və s. povestlərin ehtiva etdiyi ezoterik və ekzoterik məzmun arxaik qatlardan süzülüb gələn və çağdaş mərhələdə hərəkətliliyini zəruriləşdirən mükəmməl bir sistemlə və "*kommunizm qurucusunun mənəvi simasını, prinsiplərini, insanpərvərlik münasibətlərini yüksək pafosla təsvir etmək ən aktual hal"* kimi müəyyənləşir"[24]

İ.Hüseynovun 60-cı illər nəsrinin tipologiyası son dərəcədə stixial və etnomədəni sistemin intellekt gücünə bağlı olduğu üçün

[24] Hümmətova, G.S. İsa Hüseynovun 60-cı illər nəsri /–Bakı: Filologiya məsələləri,– 2014. №6,– s.464-469.

ədəbi tənqid kontekstində bir sıra parametrlərdən yanaşmanı gərəkli edir.

a). yazıçının bədii-intellektual təfəkkürünün miqyası baxımından;

b) ədəbi-nəzəri fikrin yazıçı intellektini dərk və əxz edə bilmək səviyyəsi kontekstindən;

c) siyasi-ideoloji sistemin müəyyənləşdirdiyi ölçü və meyarlardan (məsələn, həyata vüsətli baxış);

ç) üslub və yeni yazıçı konseptini ortaya qoymaq baxımından və s.

"Anadil ötən yerdə"dən, Bizim qızlar"a, "Saz"a, "Tütək səsi"nə, "Teleqram"a, "Yanar ürək"ə, oradan da "İdeal"a gedən yolun dinamikası, etnokulturoloji yaddaşın harmoniyası bunlarla səciyyələnir.

İsa Hüseynovun "Saz" povesti haqqında yazarkən S.Əsədullayev ("Müasir nəsrimizin inkişaf meyilləri" məqaləsi) qeyd etmişdir ki, yazıçı "*kolxoz həyatının geniş lövhələrini qələmə almağa çalışmır. Konkret problemlərə toxunur və bu problemlərin konturlarını kifayət qədər aydın şəkildə müəyyənləşdirir, kənd mövzusunda yazan başqa müəlliflərdən fərqli olaraq, bunların ətrafında müəyyən qəlibə salınmış süjet yaradan və personajları qruplaşdırır*"[25]."Tütək səsi", "Teleqram","Saz" və s. əsərlərin tipoloji sistemi özünəməxsusluq, mükəmməllik timsalında yazıçı təfəkküründə bədii-intellektual yaddaşın meyarlarını bir bütöv olaraq aydınlaşdırmaq gücü ilə seçilir. Məsələn, "Kollu koxa" povesti haqqında təhlil apararkən S.Əsədullayev vurğulayır ki, əsərin əsas ideyası baş qəhrəman tərəfindən insanlara qoşduğu ayamalar vasitəsi ilə açılır. "Saz", "Tütək səsi", "Kollu koxa", "Quru budaq", "Teleqram" povestləri "*aydınlaşıb-durulaşan yeni formalı əsəri"*[26] kimi qiymətləndirilir. "Teleqram" povestində emosional yük daşıyan

---

[25] Əsədullayev, S.Q. Müasir nəsrimizin inkişaf meyilləri //– Bakı: Azərbaycan jurnalı, – 1971. № 8,–s.8

[26] Əliyeva, S. Sənətkarlıq dərsləri // – Bakı: Azərbaycan,– 1979. № 12,– s.129

ünsürlərin obrazlaşması yazıçı istedadının ifadə forması olaraq nəsrin yaradıcılıq axtarışlarını müəyyənləşdirir*"insan amilini, şəxsiyyət başlanğıcı"nı önə çəkər*"[27]. Məsələn, "Saz"da saz, "Tütək səsi"ndə bir parça çörək və tütək, "Quru budaq"da quru budağın, "Kollu koxa"da isə ləqəblərin simvollaşması əsərin mahiyyətinə bağlanır.

Bütün bu qeyd edilənlər, ədəbi tənqidin görkəmli nümayəndələrinin İ.Hüseynovun nəsri, 60-cı illər bədii nəsri və ədəbi tənqid kontekstində prosesin bədii-estetik təfəkkür və düşüncə intelleksiyasını və tarixi-mədəni prosesin gedişini aydınlaşdırır.

**İ.Hüseynovun 70-80-ci illər və müstəqillik dövrü bədii nəsri ədəbi tənqiddə** adlı III fəslin birinci paraqrafı olan ***"İ.Hüseynovun tarixə yeni baxışı və ədəbi tənqid ("Məhşər" romanının materialları əsasında)"***də İsa Hüseynovun "Məhşər" romanının materalları və həmin əsər haqqında ədəbi tənqidi nümunələr əsasında 70-80-ci illər nəsrinin ümumi mənzərəsi təhlil obyektinə çevrilmişdir. "Məhşər" romanı ilə bağlı mübahisə və müzakirələr, tarixçilərin, ədəbiyyatçıların yanaşma fərqlilikləri, hökmdar və mühit, şəxsiyyət və cəmiyyət, şair və hökmdar qarşılaşmaları, Əmir Teymur və Nəsimi, hürufiliyin orta əsrlərin təriqət düşüncəsində oynadığı funksiya və s. İ.Hüseynovun yazıçı dərkində və təqdimində son dərəcədə ciddi hadisədir. Bir növ ədibin yaradıcılığının ikinci dönüş mərhələsinin başlanğıcı və birincinin sonudur. Akademik T.Hacıyev "Məhşər" romanı kontekstində bu məqamları diqqət önünə gətirir və vurğulayır ki, *"indi tarixi öyrənmək üçün İsanı oxu: olanları dəyərləndirmək üçün İsanı oxu; gələcəyi görmək üçün İsanı oxu; insan psixologiyasını duymaq üçün İsanı oxu; həyatın əziyyətlərinə bir*

---

[27]Hümmətova, G.S. İsa Hüseynovun "Tütək səsi" povesti ədəbi tənqidi müstəvidə //"Bəxtiyar Vahabzadə və Azərbaycan Filologiyasının Aktual Problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları /–Bakı, –29 oktyabr,–2015 –s.218-221.

*sufi qeyrəti ilə dözmək üçün İsanı oxu... İsa adi nasir deyil”*[28]. Göründüyü kimi, “Məhşər” romanı kontekstində deyilmiş bu qənaətlər İ.Hüseynov nəsrinin bədii-fəlsəfi intelleksiyasını, həyatı öyrənmək və dərkin ruhani və məntiqi meyarını, gələcəyə hesablanan təbii-ilahi sistemin nizam-axarını, tarixi reallığın nələrdən ibarət olduğunu aydınlaşdırmaq üçün “İsanı oxu” konsepsiyasının gərəkliyini və fundamental funksiyasını aydınlaşdırır. 60-cı illərdən müəyyənləşmiş yazıçı konsepsiyasını (İsa Hüseynov özünəməxsusluğunu) “Məhşər”lə dağıtdı və onun yaradıcı təfəkkürünün mahiyyətindəki zənginliyin digər tərəfini ədəbi tənqidin üzünə açdı.

Bütün bunların ehtiva etdiyi sistem müstəvisində ədəbi-nəzəri fikrin yanaşmalarını bir neçə istiqamətdə təhlilə gətirməyin gərəyi yaranır:

a) İ.Hüseynovun yazıçı konsepsiyasında “Məhşər” romanının unikal xarakteri;

b) tarixi aspektdən əsərə münasibətin ümumi mənzərəsi;

c) metodoloji yanaşmalarda ədəbi-nəzəri fikrin meyar və prinsipləri;

ç) sosioloji aspektdən təhlillərdə nəzərə çarpan ənənəvilik;

d) tarixilik və müasirliyin bir sistem olaraq əsərdə dərki və təqdimi;

e) yazıçı üslubunun özünəməxsusluğunun dinamikası və s.

***““İdeal” romanı tənqidi düşüncə çevrəsində”*** adlı ikinci paraqrafında 70-80-ci illər ədəbi tənqidi, eləcə də müstəqillik dövrünün ədəbi-nəzəri mühakimələri İ.Hüseynovun “Yanar ürək”dən “İdeal”a qədər olan təhlillərində yanaşma fərqlilikləri, əsərin təhlilində olan metodoloji yanaşmalar, funksional xarakterin məqsəd və məramı bütün tərəfləri ilə təhlil edilmişdir. *“Muğannanın “İdeal” romanını (nəşr olunan iki versiyası da daxil) oxuduğum zaman*

---

[28] Hacıyev, T. İ.Uzaq səfərlər kapitanı // Ədəbiyyat. –2008, 6 iyun. – s.3.

*Azərbaycanın gizli tarixini yansıtan, anlaşılması çətin, oxucusuna düşünülmüş şəkildə qurulmuş tuzaqlarla dolu bənzərsiz romandır”*[29]. Ona görə də İ.Hüseynovun “İdeal” romanını müxtəlif aspektlərdə təhlil etməyin gərəyi yaranır və bunlar yazıçı qayəsinin ümumi sistemini aydınlaşdırmaq funksiyası ilə ədəbi tənqidin qənaətlərinə bağlanır:

a) “İdeal”ın mətn hadisəsi olaraq paradiqmatik səviyyəsinin müəyyənliyi;

b) “Yanar ürək” və “İdeal” romanının sintaktik sistemində və funksional aspektlərində mövcud əlaqə və özünəməxsusluqların aydınlaşması;

c) “modern roman” təsəvvürünün “İdeal”da müəyyənləşmiş kod və klişelərinin aydınlığı;

ç) sintaktik səviyyənin İsa Muğanna mükəmməlliyini aydınlaşdıran faktorlar;

d) mifoloji və tarixi yaddaşın əsərdə əhatələdiyi məzmun;

e) janr səviyyəsinin “İdeal”da ehtiva etdiyi struktur səciyyəsi;

ə) “Məhşər”dən gələn başlanğıcın “İdeal”da təzahür aspektləri və s.

Bütün bunlar İsa Hüseynovun yaradıcılığının, eləcə də “İdeal”ın yeni tənqidi düşüncəsində açımını şərtləndirir. Son olaraq onun yazıçı təxəyyülü və təfəkkürünün intellekt potensiyasında aydınlaşmalı olanların (bəlkə də dərkinin) zəruriliyini bir problem olaraq ortaya qoyur. Çağdaş ədəbi tənqid bu müstəvidə öz imkanları daxilində dərk və təhlilə üstünlük vermişdir.

***““Yanar ürək”dən “İdeal”a: “ədəbi qəhrəmanların yeni taleyi” ədəbi tənqiddə”*** adlı ikinci paraqrafın birinci bəndində ədəbi tənqidin

[29] Ülkü, İ. Azərbaycan Folkneri: İsa Hüseynov (Muğanna) // Ədəbiyyat. – 2004, 8 oktyabr. –s.3.

“Yanar ürək”ə, “İdeal”a münasibəti birmənalı qarşılanmamışdır. Q.Kazımov “Ədəbi qəhrəmanların yeni taleyi” məqaləsində “İdeal”la “Yanar ürəy”i müqayisə edərək onlar arasındakı özünəməxsusluq və fərqlilik məqamlarına diqqət yetirərək yazır: *“Yanar ürək” özlüyündə yüksək bədii-estetik məziyyətləri ilə seçilən, sevilən, çox oxunan, oxucunun zövq və tələblərini ödəyən bir əsər kimi ədəbiyyatımızda xüsusi qiymətə malikdir. Lakin yazıçı faktiki olaraq həmin əsəri uçurub-dağıtmış və onun əsasında tamamilə yeni bir roman yaratmışdır"*[30]. Əsərdəki dərin psixoloji situasiyalar, hadisələrin ümumi axarında olan enib-qalxmalar, surətlərin mahiyyət və düşüncəsindəki dəyişmələr, Çax-çux Xalıq, Qılınc Qurban, Sultan Əmirli, Qudalı Qeybalı, Təftiş Abbas, Gülbəniz və s. obrazların sərgilədiyi təsəvvür romanın yeni bir əsər olması təsəvvürünü də ortaya qoyur, ədəbi tənqid bir istiqamətdə “İdeal”ı yeni əsər kimi təqdimə haqlıdır. İ.Hüseynovun yazıçı şəxsiyyəti, psixoloji situasiyalar yaratmaq qabiliyyəti, yaradıcı istedadı, hadisələri dərk və ifadə üsulu bütün mərhələlərdə özünü yüksələn xətdə, həm də fərqli, orijinal formalarda göstərmişdir.

***““İdeal” romanının “Qapalı dünya” fəslinə ədəbi tənqidin paradoksal yanaşmaları”*** adlı ikinci paraqrafın ikinci bəndində “Qapalı dünya”nın qapalılıq kodları bütün arxetipləri, arxitektonik sistemləri sirkələmək və daha dərindən düşünmək gücü ilə faktlaşması araşdırılıb.Yazıçının bütün məqsəd və məramı, onun yaddaş və qavrayış klişeləri “Qapalı dünya”da kodlaşır.T.Hacıyev, Q.Kazımov, N.Cəfərov, V.Barat, E.Akimova və başqaları “Qapalı dünya”nın formalaşdırdığı təsəvvürü, Odər mədəniyyətinin, bütün xalqların, dinlərin, dillərin bir kökdən ibarət olması məsələsinin açılışı probleminə diqqəti yönləndirir. Bütün bunlar müqabilində “Qapalı dünya” paradoksal yanaşma və

---

[30] Kazımov, Q.Ş. Ədəbi qəhrəmanların yeni taleyi. Sənət düşüncələri / Q.Kazımov. – Bakı: Azərbaycan Dövlət Kitab Palatası, – 1997. – s. 157-158

təsəvvürlərlə, dərk olunma mürəkkəbliyi ilə müxtəlif səpkili təhlil və yozumlara yol açır. Ədəbi tənqidin bir bütöv olaraq dərki isə onun düşüncəsini, yaddaş kodunun, fəlsəfi təfəkkürünün qavrayış sxemlərinin aydınlaşması ilə mümkündü. “İdeal”da, onun bir hissəsi olan “Qapalı dünya”dakı sistemi ədəbi tənqid özününküləşdirməklə, mənimsəməklə *“xalqların tarixini araşdırmaq baxımından daha əhəmiyyətli”*[31] imkan qazana bilər.

Dissertasiyanın III fəslin son bəndi ***“Ədəbi tənqid “İdeal”, “Əbədiyyət və GurÜn” romanlarının ideya-məzmun və struktur əlaqələri haqqında”*** adlanır və burada “İdeal”, “Qəbiristan”, “GurÜn”, “Cəhənnəm”, “İsahəq, Musahəq” əsərləri İsa Hüseynovun ikinci mərhələsinin hadisəsi olaraq təhlil edilib.İkinci mərhələnin isə özünəməxsusluq sistemi İsa Muğanna adında olanlarla, daha doğrusu, “İdeal”, “Qəbiristan”, “GurÜn”, “Cəhənnəm”, “İsahəq, Musahəq”, “İlan dərəsi və ya peyğəmbərin taleyi”, “Qırx kisə qızıl” kimi nümunələrlə faktlaşır. Bunların isə ortaqlıq nöqtəsi “Məhşər”dir. *Üfiqi və şaquli bağlantıların aydınlığı üçün İ.Hüseynov yaradıcılığını bir neçə istiqamətdə təhlil etmək gərəyi yaranır.*

*a) yaradıcılığın birinci mərhələsindəki dünyagörüşün və yazıçı üslubunun ümumi sisteminin aydınlaşması (“Anadil ötən yerdə”, “Cəbhədən məktub”, “Koroğlunun çən Qalası”, “Saz”, “Tütək səsi”, “Kollu Koxa”, “Doğma və yad adamlar” və s);*

*b) yaradıcılığının ikinci mərhələsindəki dünyagörüşün, yeniləşmənin mahiyyətinin və yazıçı üslubunun müəyyənliyi (“İdeal”, “Qəbiristan”, “GurÜn”, “Cəhənnəm”, “İsahəq, Musahəq”);*

*c) İsa Hüseynov mərhələsi ilə İsa Muğanna mərhələsinin ortaqlıq xətlərinin aşkarlanması və s.*[32]

---

[31] Hümmətova, G.S. İdeal” romanının “Qapalı dünya” fəslinə ədəbi tənqidin paradoksal yanaşması// Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları/ –Bakı, –22-23 noyabr,–2018,–II cild.–s.196-198

[32]Hümmətova, G.S. Ədəbi tənqid "İdeal", "Əbədiyyət" və "GurÜn" romanlarının ideya-məzmun və struktur əlaqələri haqqında //–Bakı: Filologiya məsələləri,– 2019. №1., –s.266-269

Akademik T. Bünyadov və A.Xan "İdeal"a doğru aparan yol" məqaləsində yazıçının yaradıcılığı kontekstində mövcud dinamikanın "Cəhənnəm", "Qəbristan", "İsahəq, Musahəq" "GurÜn" kontekstində təhlil edir və baş verən diferensasiyanın ümumi spektrlərini aydınlaşdırmağa çalışır. "OdƏr"in "SafAğ" elmi müstəvisində işarələdiyi məzmun və yaddaş qatlarını aydınlaşdırmağa çalışır. Ədəbi tənqidin İ.Muğanna yaradıcılığının yeni mərhələsinin faktı olan "İdeal", "Əbədiyyət", "GurÜn", "Cəhənnəm", "Qəbristanlıq" əsərlərinə münasibəti paradiqmatik, sintaktik, janr müstəvisində təhlillərlə faktlaşır ki, burada bədii--fəlsəfi, mifik-teoloji, tarixi-mədəni aspektləri də diqqət önünə gətirilir. Nəticə olaraq, "İdeal", "Əbədiyyət", "Cəhənnəm", "Qəbristanlıq, "GurÜn", "İsahəq, Musahəq" romanlar silsiləsi struktur, ideya-düşüncə, təsəvvür kodları ilə bir-birinə özünəməx-sus sistemlə, yazıçı təfəkkürünün intelleksiyasının müəyyənləşdirdiyi meyarlarla bağlanır. Dünyanın yaranışından bu yana olanlara, insan oğlunun keçib gəldiyi yola, dinlərə, dillərə, fəlsəfi-estetik dərk və qavrayışlara ciddi münasibət sərgiləyən bu romanlar silsiləsi İ.Muğanna etiqadını, onun yazıçı qüdrətini, əsərdən-əsərə keçib gələn məzmun-struktur bağlarını bir bütöv olaraq ortaya qoyur.

**"Nəticə"**də dissertasiya boyu gəlinən qənaət və yeniliklər ümumiləşdirilir.

İ.Hüseynov (Muğanna) nəsri və ədəbi tənqid probleminin təhlilindən gələn nəticə və qənaətləri aşağıdakı kimi quruplaşdırmaq olar:

a) Zəngin bədii düşüncəsi, yaradıcı istedadı, özünəməxsus təhkiyəçilik qabiliyyəti, sərt yazıçı mövqeyi və üslubu bütün mərhələlərdə (ədəbiyyata ayaq basdığı ilk zamanlardan) ədəbi tənqidin maraq və diqqət dairəsində olmuşdur. "Atamı yaxşı tanıyıram" modeli ilə ədəbi arenada diqqəti özünə cəlb edən yazıçı yüksək təfəkkür intelleksiyasının miqyası və meyarları ilə 60-cı illər nəsli üçün örnək olmuş və 60-cı illər nəsrinin ədəbiyyat hadisəsi olaraq qəlibləşməsində müstəsna funksiya ilə mövqe nümayiş etdirmişdir.

b) Ədəbi-mədəni mühitin nümayəndələrinin fikir və mülahizələrinin geniş sferada təhlili İ.Hüseynov yaradıcılığının dərki baxımından ziddiyyətli fikir ayrılıqları ilə xarakterizə olunur. Bunun səbəbi bir istiqamətdə siyasi ideolojilərin basqıları ilə bağlanırdısa, digər müstəvidə yazıçının üslub və özünəməxsusluğunun dərki ilə əlaqələnirdi.

c) Sovetlər dönəminin müəyyənləşdirdiyi yazıçı və qəhrəman tipləri, "nəcib qəhrəman" təsəvvürü, eləcədə sosrealizmin müəyyənləşdirdiyi yaradıcılıq konsepsiyası ilə İ.Hüseynovun yazıçı təsəvvürü arasında bir fərqlilik müşahidə olunur. Çünki İ.Hüseynovun təsəvvür və qavrayışında yazıçı və ədəbiyyat məsələsinin özünün müəyyənləşmiş sxem və kodları görünür. "Bizim qızlar", "Dan ulduzu", "Yanar ürək", "Doğma və yad adamlar" və s. ətrafında baş verənlər bunun nümunəsidir.

ç) Sosioloji yanaşmalardan struktur tiplərinə qədər olan müxtəliflikdə İ.Hüseynovun yazıçı stixiyası, təfəkkür intelleksiyası, etnokulturoloji düşüncənin qəlibləşdirdiyi yaddaş mexanizmləri bir bütöv olaraq özünü göstərir. M.Arifin xüsusi tonla vurğuladığı "yazı üslubunda bir təbiilik, həyatilik, sünilikdən uzaq olan canlı həyat təravəti duyulmaqdadır" qənaəti İ.Hüseynovu bütün yaradıcılığı boyu izləmişdir.

d) İ.Hüseynovun ədəbiyyata, sənət həqiqətinə olan yanaşmaları, apardığı analitizmlər onun üslub yaradıcısı olmasını düşünməyə əsas verir.

e) 60-cı illər yeniləşməsi və yeni nəsr təsəvvürü bir istiqamətdə sırf zamanın, tarixi zərurətin ortaya qoyduğu reallıq idi. Lakin həmin reallığın həyata keçirilməsinin faktlaşması İ.Hüseynov yaradıcılığı ilə, sərt yazıçı mövqeyi və yaradıcı istedadı ilə ciddi uğurlara və qarşısı alınmaz hərəkata çevrilmişdir.

ə) 70-80-ci illər ədəbi tənqidinin "Məhşər" ətrafında müzakirələri birmənalı xarakter daşımamışdır. Burada ədəbi tənqidin sosioloji, siyasi, tarixi, janr və struktur baxımından mühakimələri və mövqeləri bir istiqamətdə əvvəlki yaradıcılıq konseptindən çıxışla səciyyələnirsə, digər istiqamətdə sırf

"Məhşər"in özünün verdiyi mətn//yazıçı münasibətləri ilə təzahür olur.

f) Ədəbi tənqidin və bütünlükdə ədəbi prosesin İsa Hüseynov simpatiyası, yazıçı dərki həm də üslub yaradıcısı, orijinal yazı düşüncəsi təəsvvürü ilə qəlibləşir.

g) "İdael", "Cəhənnəm", "Əbədiyyət", "GurÜn", "İsahəq, Musahəq", "İlan dərəsi" əsərlərində hadisə və təhlilin (hətta yanaşmaların da) meyar və prinsipləri yazıçı dərki və yazıçı üslubu kontekstində ədəbi tənqidin düşüncəsindən bir xətt kimi keçir. İ.Muğanna dərkinin və dərk olunma çətinliyinin mahiyyəti onun təfəkkür intelleksiyasının fərqliliyinə bağlanır.

Bütün bunlar ədəbi tənqidin İsa Hüseynov yaradıcılığına olan marağın müxtəlifliyini, yazıçı təfəkkürünün möhtəşəmliyini aydınlaşdırmaq həssaslığına köklənir.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

**1**. İsa Hüseynovun "Kollu koxa" və "Saz" povesti // Azərbaycan xalqının Ümumilli Lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransının materialları / – Bakı, –25-26 aprel,–2013,–s.433-434.

2. "Doğma və yad adamlar"60-cı illər ədəbi tənqiddə // Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları / – Bakı, –19-20 dekabr,–2013,–s.103-105. II cild.

3. Ədəbi tənqiddə İsa Muğanna yaradıcılığının müqayisəsi // XXI əsr mədəni paradiqması multimədəni aspektdə Respublika elmi-praktik konfransının materialları / –Bakı,–25-26 noyabr,–2014,.–s.22-23.

4. İsa Hüseynovun "Bizim qızlar" povesti ədəbi tənqiddə // Azərbaycan xalqının Ümumimilli Lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların II Beynəlxalq elmi konfransının materialları / –Bakı, –18-19 aprel,–2014,.– s.464-469.

5. İsa Hüseynovun 60-cı illər nəsri /–Bakı: Filologiya məsələləri,– 2014. №6, – s.464-469.

6. 1950-ci illərdə ədəbi proses və tənqid // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları /–Bakı,–aprel, –2015,– I cild, –s.425-427.

7. İsa Hüseynov yaradıcılığının tənqid tarixi // "Türk xalqları ədəbiyyatının aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları /– Bakı, –18 dekabr,–2015,–s.161-164

8. İsa Hüseynovun "Tütək səsi" povesti ədəbi tənqidi müstəvidə //"Bəxtiyar Vahabzadə və Azərbaycan Filologiyasının Aktual Problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları /–Bakı, –29 oktyabr, –2015, –s.218-221.

9. "İdeal" romanı yeni tənqidi düşüncə çevrəsində // Azərbaycan xalqının Ümumimilli Lideri Heydər Əliyevin anadan olmasının 92 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların III Beynəlxalq elmi konfransının materialları / –Bakı, –17-18 aprel,–2015,–II kitab. –s.852-853

10. Роман "Идеал" в контексте современной литературной критики Иса Муганна (Гусейнов) // – Ukrayna, – Науковы записки. Серiя лiтературознавство Тернопiлъ /– 2015. –s.248-289.

11. İsa Hüseynovun "Quru budaq" povestinə ədəbi tənqidi münasibət // Azərbaycan xalqının Ümumimilli Lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların IV Beynəlxalq elmi konfransının materialları /Bakı, –29-30 aprel, – 2016, – s.1037-1039.

12. İsa Hüseynov nəsri və ədəbi tənqid // –Bakı: Filologiya məsələləri,–2017. №17, – s.392-396.

13.""Yanar ürək"dən "İdeal"a ədəbi qəhrəmanların yeni taleyi" ədəbi tənqiddə //–Bakı: Tağıyev oxuları (Elmi məqalələr məcmuəsi), – 2017, –s.234-236

14. XX əsrin birinci yarsında UİK(B)P MK-nın ədəbiyyat və incəsənət haqqında qərarının "Yeni nəsr"də rolu// –Bakı: Filologiya məsələləri,–2018. №17, – s.323-328.

15. İsa Hüseynovun nəsrində "Çünki atamı yaxşı tanıyıram" manifestinin əsərlərində əksi // Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu Beynəlxalq elmi konfransın materialları / – Bakı, – 04-05 aprel, – 2018, – s.286

16. "İdeal" romanının "Qapalı dünya" fəslinə ədəbi tənqidin paradoksal yanaşması// Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları/ –Bakı,–22-23 noyabr,– 2018. –II cild.–s.196-198.

17. Ədəbi tənqid "İdeal", "Əbədiyyət" və "GurÜN" romanlarının ideya-məzmun və struktur əlaqələəri haqqında// –Bakı: Filologiya məsələləri,–2019. №1, – s.266-269.

18. Роман "Идеал" в контексте современной литературной критики Иса Муганна (Гусейнов) // Сборник статей XI международной научно - практической конференции, состоявшейся 5 февраля 2020 г .вг. пенза / 5 fevral– 2020. –II cild –s. 161-164.

19. İsa Hüseynovun "Teleqram" povesti yeni nəsrin ilk nümunəsi kimi// Казан-Нур-Султан-Измир, Материалы IV международного научно-методического онлайн-семинара/ –20 fevral–2020. – s.521-525.

20. İsa Hüseynov nəsrinin birinci mərhələsində sosrealizmə müqavimət duyğusu və tənqidin sənətkarın yaradıcılığına sərt reaksiyası //–Naxcıvan: Axtarışlar,–2021. №1, – XIV– s.17-22

21. İsa Hüseynovun "Məhşər" romanında tarixə yeni baxışı və ədəbi tənqid //–Naxcıvan: Axtarışlar, –2021. №2, –XV– s.30-36

22. İsa Huseynovs "Safag romances series"//Karabag international congress of modern studies in social and human siciens /– 17-19 iyun,– 2021, – I cild –s.193-195

Dissertasiyanın müdafiəsi 26 aprel 2022-ci il tarixində saat 12⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 mart 2022 –ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb : 02.03.2022

Kağızın formatı : 60*84/ 1/16

Həcmi: 79727

Tiraj :100 nüsxə